Geriyə baxma, qoca!



*Sabir Arazlı ÖZGÜN*

## AXIRDA TƏK QALDIM

Vaxt vardı; ağlayıb-gülə bilirdin,
Bir çarəsizin könlün ala bilirdin.
Qollu-budaqlısan elə bilirdin,
Axırda tək qaldın, Sabir Arazlı!

* * *

Çatılmış ayağı üstündə duran,
Şimşək parçalayan, ildırım vuran,
Dağlardan ayrılan sal qaya kimi,
Heç vaxt yozulmayan bir röya kimi...
axırda tək qaldım.

Çarəsi olmayan dərd, yara kimi,
Viranə bir evin uçub dağılmış,
himə bənd, bölünmüş divarı kimi,
Kaftarlar təkləyib parçaladığı
bir ovun sümüyü ağarır kimi...
axırda tək qaldım.

Necə ki...
bürküyə dözüb-tablanıb
topa qar quzeyə sinər, sığınar,
Necə ki...
tək yaşar çölün düzündə
kölgəli, möhtəşəm, uca xan çinar,
Necə ki...
peyindən yumurulanmış "Yer"
iki dozanqurdu əlində naçar...
axırda tək qaldım.

Ömrümün qürub çağıdır...
Ömrümün qərib çağıdır...
Üzgünəm, çox üzgün,
Mən - Sabir Arazlı Özgün!

.... Bu dünyanın
o ucundan-bu ucuna
addım-addım,
Bu dünyayla höcətləşə-höcətləşə,
dümsükləşə-dümsükləşə
gəlib çatdım.
Altmış beşə çatanacan
milyon kərə Əzrayılla
"çiling-ağac" oynadım mən.
Fələk məni bu yollarda
çox oynatdı barmağında -
oynadım mən.

Su atdılar oddağıma -söndürməkçün,
Cızdağımı çıxardılar,
dayandı çarx!
Su sovuldu,qurudu arx.

Yol uzundu...
Mən bu yolda çox üzüldüm ,
Pörtdüm,yandım,
Çoxlarıyla üz-göz oldum.

Eh!... Mən nələr eşitmədim!
Eşidəndə tənələri,təhqirləri
heç bilmədim mən nə edim.
Ünvanıma
" pis adamdı" deyən oldu,
"hirs adamdı" ,
"tərs adamdı" deyən oldu,
"Şər adamdı" ,
"nəhs adamdı " deyən oldu ,...
Dinlədim
və kirimişcə dözdüm, durdum.
Ömrü belə başa vurdum.
...Xəyal idi,sirr idi ŞAM,
Cıqqır-cıqqır əridi ŞAM.

## BİLİRSƏN

Mənim kövrək uşaqlığım Cahana
kürəyində şələ gəldi... -
Bilirsən!
Neylədimsə,məni qarsdı bu dünya,
Hər işim nəhs dilə gəldi... -
Bilirsən!

Mən yaxını,yadı "peşman" elədim,
Əski dostu özüm düşman elədim.
Nəyim vardı yaxşı,.. yaman elədim.
Göz yaşlarım daşı dəldi... -
Bilirsən!

Daha gecdi, nizam bir də düzəlməz.
Mən... boş yerə xəyal qurdum.
Düzəlməz!
Yalandı ki, heç vaxt ümid üzülməz.
Ocaq söndü, qalan küldü... -
Bilirsən!

Çən olmadım,çisək,duman olmadım,
Nə ümidgah, nə də, güman olmadım,
Heç yaranan mən tək peşman olmadı,
Altmış beşdə kötük qaldım... -
Bilirsən!

## BAXIRAM GERİDƏ QALAN GÜNLƏRƏ

Mənim uşaqlığım elə uzaqdır,
Nə səsim yetişir,
nə əlim çatır.
Mənim uşaqlığım oxunmayacaq,
Yağışda, boranda itdi hər sətir...
İndi,
uzun illər keçəndən sonra,
"60" şərbətini içəndən sonra,
Baxıram,
qalmayıb nə təravəti,
Nə də o əvvəlki mehri, ülfəti
min ətir qoxuyan bağçanın-bağın.
İndi. . .
həzin-həzin ömrümə yağan
yağışa baxıram, qara baxıram,
Eləcə
əlimi günlük eləyib
özüm də bilmirəm hara baxıram;
Baxıram geridə qalan günlərə!

Baxıram. . .
Bir uşaq çay kənarında
dürmək yeyə-yeyə quzu otarır,
Zümzümə eləyir, gəzinir,
gah da,
sahil daşlarının üstə oturur.
Hələ bilməyir ki, illər keçəcək,
Hər şey öz dadını dəyişəcəkdir.
Dövranı bu qədər haqsız görüncə,
Amalı uğrunda döyüşəcəkdir.
O. . . çay kənarında quzu otaran
qayğısız, sevdalı uşaq mən idim.
Əlbəttə,
tərtəmiz, öz aləmində,
Bəmbəyaz, apaydın söz aləmində, -
Xəyalı göylərdə gəzən çocuqkən,
Məsləki uğrunda sonuna qədər
mübariz olmağı bacarmadım mən.
Çünki dözəmmədim bu ağrılara,
Sındı neçə yerdən körpə qanadım.
Mən indi sakitcə, hər kəsdən uzaq,
həzin, pıçıltılı bir bulaq kimi
köpüklü çaylara doğru axıram.
Eləcə əlimi günlük eləyib
özüm də bilmirəm hara baxıram;
Baxıram geridə qalan günlərə!

Baxıram...
Dönərək cumculuq suya,
Çırpılıram hərdən Sarı qayaya,
Çaqqallı qobuya,
Uzun dərəyə.
Qançır yanağımı ovuşduraraq
Həsrətlə baxıram bu mənzərəyə.
Hərdən də. . .
bir hənir eşidərəm mən.

Səsə diksinərək qalxaram həmən...
Dəli eləyibdir bu səslər məni,
Kor quyu,
Gödək arx, Talvar demisi
gecəli-gündüzlü hey...
səslər məni.
... Nə əvvəlim gəldi, nə də axırım.
Eləcə əlimi günlük eləyib
"60" şərbətini içəndən sonra
özüm də bilmirəm hara baxıram.
Həsrətlə, yanğıyla, can ağrısıyla
baxıram geridə qalan günlərə!

## HALALLIQ İSTƏYİRƏM

Bəlkə də bu bizim son görüşümüz,
Bəlkə də bu mənim son kitabımdır.
Mən... Sözlə dost oldum başdan-binadan,
Söz-duyğum, ruhumdur,
Söz-əzabımdır.

Kimə xoş gəlməsə sözüm-söhbətim,
Elə bilməsin mən haray-həşirəm.
Mənim də xoşuma gəlməyən söz çox,
Amma bilməyin mən dəymədüşərəm.

Bilirsən mən nəyə heyrət edirəm?
Bəzən güvəndiyim insanlar var ki,
Mən üsyan edəndə onlar susurlar.
Sonra da sevdiyim həmin insanlar,
Bir səbəb olmadan məndən küsürlər.

Belə-belə işlər...
Əziz oxucum,
Mən bir yola vardım,
Nədən, bilirsən.
Qismət olacaqmı görüşək bir də,
Onu nə mən billəm, nə sən bilirsən.

Mən bu anda hər kəsdən,
«Getmə, dayan!...» söyləyən,
Məni daim səsləyən o sədadan,
o səsdən,
Quruca bir nəfəsdən...
halallıq istəyirəm.

Mən...
dünyanın qar, sazaq
bir dünya olduğunu,
Yalançı, başıpozuq
bir dünya olduğunu,
Bu dünyanın çox yazıq
bir dünya olduğunu
dərk edib bildiyimçün...
Mən bu anda hər kəsdən
halallıq istəyirəm.

* * *

Qəm-qəhərə bürünmüşəm,
Yorğun düşüb dirənmişəm.
Mənə qarğış eləməyin,
Mən qarğışdan yaranmışam.

* * *

Həyatdı, neyləyim...
yaranan gündən
Ocağa atmağa çırpım olmadı.
... Durub boylanıram yurduma
gendən,
Sözümün səddində ALPım olmadı.
Həyatdı...
bizləndim öndən, arxadan,
Özümü asmağa ipim olmadı.
İstədim...
qəzəbim soyusun deyə
özümü daşlara çırpım...
olmadı!
İstədim...
duyğumun ağ köhlənini
əngin səmalarda çapım...
olmadı!
Hamının gedəni döndü qürbətdən,
Mənimki...
o gedən getdi,
gəlmədi!
Ölübmü, sağdımı?!. Kimsə bilmədi.

* * *

Günlərin birində qapım döyüldü...
Məni xatırlayan var
elə bildim.
Qapını açınca...
gördüm...
qonağım...
cənab Əzrayıldı.
Düzü... mat qaldım!
Ancaq gülümsəyib... dedim:
"Xoş gəldin!.."
Dedi:
"Dəvətnamə" gətirmişəm mən".
Dedim:
"Xoş!.. Yoruldum yol gözləməkdən".
...Və sordum:
"Bəs ünvan?!"
Dedi: "Ünvanı...
budur, bax;
"Tənhalar qəbiristanı!"

* * *

İçimi yandırır səsim,
Yox kimsədən umu-küsüm.
Mən...
dünyadan itən kəsəm, ?
Ən uca qatdadır Sabir!

İslanmışam yağışlarda,
Qarsılmışam qarğışlardan.
Bir gün
barıt baxışlardan
görərsiz... partladı Sabir!

Sünbüləm, dən-dən deyiləm,
Duman, çiskin, çən deyiləm.
Gördüyünüz MƏN deyiləm;
Torpağın altdadır Sabir!

* * *

Məni kimsə çağırırdı yuxuda.
Dik atıldım.
Baxdım,
kimsə yoxudu.
Sorğu-sual xirtdəyimə tıxandı;
Axı məni kim çağıra bilərdi?!.

Mən bələndim göz yaşardan tüstümə.
Yenə...
uşaq çağım olsa, deyərdim
yəqin anam qəzəblənib üstümə:
"Hardasan, ay bala,
quzuları aç!
Malı naxıra qoş!..
Qaç!
Qaç!
Qaç!.."
Yox, anam deyildi.
Əmim, ya ... bibim?!
Yox -yox, onlar məni cojutmazdı heç.
Onda
məni kim çağıra bilərdi?!
Ya... qonşumuz ola bilər?..
Yox, olmaz!
Bəlkə
Araz qırağında yaşayan
dayım bizə gələ bilər?..
Yox, gəlməz!
Dost-filan da...
ərki ötən bir kimsə
yuxudaykən məni çağıra bilməz.
Onda
məni kim çağıra bilərdi?!

Araşdırıb axır aldım sörağın,
Öyrəndim ki kimmiş məni çağıran.
Gecənin bir aləmində
üstümə,
Qəzəblənən,
hökmlə soşan,
bağıran.
Necə?..
Kimmiş?..
Deyəcəyəm;
Sən demə,
Əzrayilmiş, gəlib xəbərdar etmiş.
Vaxtımı-vədəmi bildirib getmiş.

***2019***

